

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

20 oktyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 41 (3604)

## ZƏFƏR TARİXİMİZİN OKTYABR XRONOLOGİYASI

### *Böyük qayıdış üçün qurub-yaradır, həmrəy olub daha da güclənirik*



**Bu gün dünyanın gözü yenə də ölkəmizə dikiləcək. Şərqi Zəngəzur İqtisadi Rayonunda Vətən müharibəsindən sonra Böyük qayıdışın ilk ünvanı sayılan Zəngilan rayonunda Şərqi Zəngəzurun ilk hava qapısının açılış mərasiminə, o möhtəşəm tarixi hadisəyə şahidlik edən dostlar sevinəcək, düşmənlər isə kədərlənəcəklər.**

Ərazi bütövlüyümüzü bərpa etmək üçün düz iki il öncə hər günü bir əsrə bərabər olan Vətən müharibəsində belini qırdığımız düşmənə qahmar çıxanların da dilini kəsdik. Döyüş meydanındakı gücümüzlə, qətiyyətimizlə və diplomatik uğurlarımıza yol açan Azərbaycançılıq strategiyamızla hər kəsə sübut etdik ki, tarixi torpaqlarımızda ikinci erməni dövləti yaratmaq istəyənlərin arzusu gözündə qalacaq.

İki il bundan öncə ordumuzun qazandığı qələbələrə şahidlik edən oktyabr ayının xronologiyasını-o tarixi günləri yenidən birlikdə xatırlayıb, qürur duyaq.

Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə Hadrut qəsəbəsini düşməndən təmizlədi. Ermənistan silahlı qüvvələrinin "məğlubedilməzlik" mifini əməliyyatların ilk günlərindəcə darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 18-də - Müstəqillik Günündə üçrəngli bayrağımız qədim Xudafərin körpüsünün üzərində dalğalanmağa başladı. Bundan iki gün sonra – oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycanın İran ilə dövlət sərhədi tam nəzarətə götürüldü.

Azərbaycan Prezidenti İlham Əliyev tvitterdəki səhifəsində bu barədə belə qeyd etmişdi: "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!".

Ordumuz oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Bu əməliyyatın ən böyük əhəmiyyətindən biri də Dağlıq Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun nəzarətə götürülməsi idi.

Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə Müzəffər Ordumuz 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edib.

## FƏDAKAR XİDMƏT, QÜRUR DOĞURAN İCTİMAİ RƏY

### *Vətəndaşlar da cinayətlərin açılmasına töhfə verirlər*





Oktyabrın 14-də Daxili İşlər Nazirliyində təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, cinayətlər və xırda talamalar nəticəsində vətəndaşlara vurulmuş ziyanın ödətdirilməsi işinin vəziyyətinə, eləcə də cari ilin 9 ayının yekunlarına həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan hər üç məsələnin fundamental insan hüquqlarının müdafiəsində, vətəndaşların qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Gündəlikdəki məsələlər barədə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri məruzə edərək müzakirə olunan məsələlərlə bağlı görülmüş işlərdən, əldə edilmiş nəticələrdən, yol verilmiş nöqsanlardan və onların aradan qaldırılmasının gedişindən danışıblar. Qeyd olunub ki, cari ilin 9 ayında respublika üzrə axtarışda olanların 81,4 faizi tutularaq istintaqa təhvil verilib. Cinayət işləri və xırda talamalar nəticəsində vətəndaşlara vurulmuş ziyanın təxminən 90 faizə qədəri ödətdirilib.

Həmin müddətdə qanunsuz dövriyyədən 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 293 kiloqram çox, yəni ümumi dəyəri 40 milyon manat təşkil edən 3 ton narkotik vasitə və 300 kiloqramdan artıq psixotrop maddə, o cümlədən narkotiklərin onlayn satışı ilə bağlı 241 fakt müəyyən edilərək qeyri-leqal dövriyyədən 1 ton 400 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə çıxarılıb. Keçirilmiş əməliyyat tədbirləri ilə 289 nəfərdən ibarət 113 cinayətkar qrup zərərsizləşdirilib.

Tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası yönümündə də davamlı iş aparılıb. Xüsusi əməliyyat planı üzrə keçirilən tədbirlərlə ümumi çəkisi 25 tona yaxın olan çətənə və xaş-xaş kolu, eləcə də yabanı halda bitmiş 166 tondan çox həmin növ bitki aşkarlanaraq məhv edilib.

Məruzələr ətrafında bir sıra ərazi orqanlarının rəisləri çıxış edərək görülmüş və planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 9 ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub-saxlanıldığını vurğulayıb.

*Ardı 2-ci səhifədə.*

# FƏDAKAR XİDMƏT, QÜRUR DOĞURAN İCTİMAİ RƏY

## Vətəndaşlar da cinayətlərin açılmasına töhfə verirlər

*Əvvəli 1-ci səhifədə.*

Cinayətkarlığa, onun transmilli növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsə, o cümlədən blogerlərə və digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına minnətdarlıq bildirib.



Bu xüsusda onu da nəzərə çatdırıb ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə, həmçinin həmin vasitələrin onlayn satışı sahəsində faktların 20 faizə qədəri məhz vətəndaşların məlumatları əsasında aşkarlanaraq cinayəti törətmiş şəxslər ifşa olunublar.

Eyni zamanda, nəqliyyatın sayının sürətlə artdığı bir dövrdə paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlərin üzərində də dayanan nazir yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının və digər qanunazidd halların aradan qaldırılmasının, ümumən bu sahədə tədbirlərin gücləndirilməsinin vacibliyinə toxunub.

Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin təkmilləşdirilməsi, o cümlədən funksionallığının artırılması ilə əlaqədar qarşıda duran vəzifələri də müəyyən edərək aidiyyəti qurumların rəhbərlərinə bir sıra tapşırıqlar verib. Həmçinin, günün vacib tələblərindən olan ekoloji cinayətlərin və müvafiq sahədə baş verən inzibati xətaların qarşısının alınması üzrə həyata keçirilən tədbirlərin, xüsusən qanunsuz ağac kəsmə, qiymətli ağacların məhv edilməsi hallarına qarşı mübarizənin daha məqsədyönlü aparılmasının zəruriliyini vurğulayıb.

Bütün bunlarla yanaşı, bəzi ərazi orqanlarının fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, qanunçuluğun möhkəmləndirilməsini, vətəndaşların problemlərinə, şikayətlərinə daha böyük həssaslıqla yanaşılmasını, bütövlükdə vətəndaş məmnunluğunun davamlı surətdə təmin olunmasını tələb edib.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, şəxsi heyət bundan sonra da öz məsul vəzifələrinin və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcək, ölkədə sabitliyin və əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcəkdir.

# Ekoloji təhlükəsizliyin də keşiyindəyik

Daxili işlər orqanları tərəfindən ekoloji cinayətlərin və ekoloji təhlükəsizlik əleyhinə olan inzibati xətaların qarşısının alınması məqsədilə zəruri tədbirlər həyata keçirilir.

2022-ci ilin 9 ayı ərzində bu istiqamətdə keçirilən tədbirlər nəticəsində qanunsuz ağac kəsmə faktı üzrə 155, balıq və başqa su heyvanlarını tutmağa görə 96, qanunsuz ovla bağlı isə 1 cinayət işi başlanılıb.

Eyni zamanda, meşə qanunvericiliyinin tələblərini, yerin təkindən istifadə qaydalarını pozduqlarına və qanunsuz ov etdiklərinə, eləcə də mülki silahın daşınması qaydalarını pozduqlarına görə 2086 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb.

Daxili İşlər Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında, çimərliklərdə məişət tullantılarının tutumundan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə də tədbirlərini davam etdirib və İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 8051 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*N.Cavadov,*
*polis mayoru*

# Təbliğat və təşviqat işləri uğurla davam etdirilir




Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviqlə bağlı yuxarı sinif şagirdləri ilə keçirilən silsilə tədbirlər Kürdəmir, Şamaxı və Qusar rayonlarında davam etdirilib.



Görüşlərdə DİN-in Polis Akademiyasının Tədris metodiki şöbəsinin rəisi, polis polkovniki Fərhad Əliyev, Beynəlxalq əməkdaşlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elçin Orucov, Kadrlar şöbəsinin inspektoru, polis kapitanı Asif Əhmədov, müvafiq Rayon Polis şöbələrinin şəxsi heyət üzrə köməkçiləri və gənc əməkdaşları, eləcə də polis veteranları iştirak ediblər.

Tədbirlərdə çıxış edən Akademiyanın nümayəndələri şagirdlərə təhsil ocağı barədə ətraflı məlumat veriblər. Qocaman təhsil müəssisəsinin ölkəmizdə ictimai-siyasi sabitliyin və asayişin daha möhkəm şəkildə qorunmasına mühüm töhfələr verdiyi, daxili işlər orqanlarının yüksək ixtisaslı hüquqşünaslarla, habelə fiziki cəhətdən sağlam polis zabitləri ilə təmin olunmasında mühüm rol oynadığı diqqətə çatdırılıb. Akademiyaya kursant qəbulu qaydaları ilə bağlı sualları cavablandıran təmsilçilər gənclərimizin hərtərəfli inkişafı üçün yaradılan müasir şərait, o cümlədən asudə vaxtlarının səmərəli təşkili məqsədilə görülən işlərdən bəhs ediblər.

Tədbir iştirakçıları dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişafı Startegiyası"ndan irəli gələn məsələlərdən də söhbət açıblar.

Sonra polis veteranları cinayətkarlıqla mübarizədə qazanılmış zəngin təcrübənin gənc polis əməkdaşları tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Onlara xilaskar deməkdə haqlıyıq

Bir neçə gün əvvəl Kür-Bakı su kəmərinin Qaradağ ərazisindən keçən hissəsində baş verən qəza nəticəsində Bakı-Qazax yolunun bir hissəsinin suya qərq olması ciddi hadisə idi. Olayın qarşısını almaq, ərazidən keçənlərin təhlükəsizliyini təmin etmək üçün bütün əlaqədar qurumlar səfərbər olmuşdu. Sosial şəbəkələrdə yayılan videolarda isə ərazidə daha çox yol polisinin əziyyət çəkdiyi görünürdü. Çünki hadisə yolda baş vermişdi və yüzlərlə nəqliyyat vasitəsinin rahat, təhlükəsiz hərəkəti təmin olunmalı idi.

Görüntüləri, polis əməkdaşlarının düşdüyü vəziyyəti ürəkağrısı ilə izləməmək mümkün deyil. Boğazlı çəkmələr geyinsələr də ayaqları suyun içində idi. Çəkmələrinə dolmuş suyu boşaldıb yenidən xidmətə davam edirdilər.



Sürücülər rahat, daha təhlükəsiz yolla mənzil başına çatsınlar deyə suyun, palçığın içində xidmət aparmağın bir adı da fədakarlıq deyilmi?

Mənim və bir çox izləyicilərin həmin görüntüləri paylaşması təəssüflər olsun ki, bəzilərinin polisə olan kinini, nifrətini



sanki körüklədi. "Burada nə var ki? İşlərini görürlər də" kimi fikirlər yazmaqla ağı-qaradan seçmədiklərini bir daha isbatlamış oldular.

Yerindən, məkanından, baş vermə səbəbindən asılı olmayaraq, harada insan həyatı təhlükədədirsə, polis orada xilaskar olmağı özünə şərəf bilir. Yeri gəlmişkən, yanğın baş verən binalarda, obyektlərdə insanları xilas etmək polisin işi deyil, amma vicdanı yol verməditi üçün o, dayanıb baxmağı özünə sığışdıra bilmir və alovun, tüstünün içinə girib can qurtarır.

Yolda, sükan arxasında halı pisləşənlərə, köməyə ehtiyacı olanlara polis hər zaman kömək edib. Sosial şəbəkələrdə bununla bağlı onlarla, yüzlərlə belə fakt var. Bu cür görüntüləri sosial şəbəkələrdə polis yaymır. Hansısa vicdanlı vətəndaş çəkib paylaşır.

Bəli, polis təhlükəsizliyi təmin etməlidir. Zərurət yarananda bu cür hal yaşanırsa deməli, normal insan bunu fədakarlıq kimi qəbul edib, alqışlamalıdır. Unutmaq lazım deyil ki, polis hansısa işi görəndə kimdənsə "sağol" eşitməyi düşünmür.



Gəlin, sağol deməyi də bacaraq. Məsələn, istidə, yağışda, qarda bizə yol göstərən, tıxacla mübarizə aparan polislərə təbəssüm göstərib "çox sağol" desək, onlara nə qədər mənəvi dəstək göstərmiş olarıq. Mən bunu dəfələrlə etmişəm və yorğun, əzgin polisin çöhrəsinə gülüş qonduğunu, gözlərinin güldüyünü görmüşəm.

Uzun sözün qısası: Yaxşı iş görən hər kəsə təbəssüm göstərib "çox sağol" demək həm də mədəniyyətin göstəricisidir.

*Elməddin Muradlı,*
*DİN yanında İctimai Şuranın üzvü, Avtosfer.az saytının baş redaktoru*

# Dəymiş maddi ziyan ödətdirilib




Naxçıvan Muxtar Respublikası Şərur rayon sakini Azad İbrahimov etibarından sui-istifadə edərək ona küllü miqdarda maddi ziyan vuran Əflatun adlı şəxs barəsində Sabunçu Rayon Polis İdarəsinə şikayət edib. Ərizə əsasında İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsilə cinayət işi açılıb.

İdarənin əməkdaşları dələduzluq əməli törətməkdə şübhəli bilinən Əflatun Quliyevi saxlayıblar. Araşdırma zamanı müəyyən olunub ki, adıçəkilən şəxs zərərçəkmişin Suraxanı rayon Əmircan qəsəbəsindəki faktiki yaşadığı ünvana çıxarış alacağı və onun adına rəsmiləşdirəcəyi adı altında yalan vəd verərək 2500 manatını ələ keçirib. Bir müddət sonra o, müxtəlif bahanələr gətirməklə işin uzandığını deyib. Aralarında müəyyən vaxt ərzində bir neçə dəfə danışıqlar apardıqdan sonra Ə.Quliyev tərəfindən aldadıldığı qənaətinə gələn A.İbrahimov ona dəymiş maddi ziyanın qaytarılması üçün polisdən kömək istəyib.

İşin təfərrüatları barədə qəzetimizin suallarını cavablandıran **İstintaq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Tural Hacıyev** prosesin yekunlaşdığını, dələduz şəxs barəsində mövcud qanunvericiliyin tələbləri əsasında tədbirlərin görüldüyünü, eləcə də vətəndaşa dəymiş maddi ziyanın tam ödətdirilməsi ilə vətəndaş məmnunluğunun təmin olunduğunu bildirib.

## PEŞƏKAR VƏ AYIQ-SAYIQ XİDMƏT

### *Həm mühafizə edir, həm də cinayətkarlıqla qətiyyətli mübarizə aparırlar*




Sabunçu Rayon Mühafizə İdarəsi canlı qüvvə və texniki vasitələrlə mühafizə olunan obyektlərin təhlükəsizliyini, eləcə də təhkim olunmuş ərazidə ictimai asayişi, ictimai təhlükəsizliyi etibarlı şəkildə qoruyur. Bunu sübut edən hadisə Sabunçu rayon Bakıxanov qəsəbəsində qeydə alınıb. Belə ki, oktyabrın 14-də gecə saat 02:30 radələrində qəsəbədə avtomarşurut üzrə xidmət aparan **RMİ-nin əməkdaşları – heyət başçısı, polis serjantı Yalçın Hüseynov və sürücü, polis serjantı Kamran Həsənov** bir qadının qışqıraraq köməyə adam çağırdığını eşidiblər. Dərhal səs gələn tərəfə qaçaraq kəsici-deşici alətlə xəsarət almış qadının yerdə uzandığını və çoxlu qan itirdiyini, həmçinin bir nəfərin hadisə yerindən yayınmağa çalışdığını görüblər. Əməkdaşlarımız yüksək peşəkarlıq nümayiş etdirərək hadisəni törədən şəxsi saxlamağa nail olublar.

Hadisə yerinin toxunulmazlığını təmin edən polis serjantları, Y.Hüseynov və K.Həsənov qadına ilk tibbi yardım göstərdikdən sonra əraziyə Təcili Tibbi Yardım çağırıb, eyni zamanda aidiyyəti üzrə RMİ-nin rəhbərliyinə məruzə edərək Sabunçu RPİ 13-cü Polis Bölməsinin Növbətçi Hissəsinə məlumat veriblər.

İlkin araşdırma zamanı saxlanılan şəxsin Bakı şəhər Suraxanı rayon sakini Tərlan Qafarov olduğu və hadisəni qısqanclıq zəminində törətdiyi müəyyən olunub. T.Qafarov ifadəsində Bakı şəhər Sabunçu rayon sakini V.Əliyevaya kəsici-deşici alətlə xəsarət yetirdiyini etiraf edib.

Faktla bağlı cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

*Teymur Əlizadə, polis mayoru*

# Uşaqlarla bağlı dialoq...







**Bakı Şəhəri üzrə Təhsil İdarəsi və BMT-nin Uşaq Fondunun (YUNİSEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Uşaq müdafiəsi: dialoq mühiti və qurumlararası əməkdaşlıq” mövzusunda keçirilən konfransda polis əməkdaşları da iştirak edib.**

Müxtəlif dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin də qatıldığı tədbirin panel müzakirələrində **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** çıxış edərək uşaq hüquqlarının müdafiəsi, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların sığınacaqlara yerləşdirilməsi və hüquqpozmalara meyilli yetkinlik yaşına çatmayanların profilaktikası istiqamətində polisin həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

**Xətai RPİ-nin YYÇPİTB baş inspektoru, polis kapitanı Leyla Cəfərzadə** də polislə qurumlar arasında birgə, koordinasiya edilmiş hərəkət planı ilə uşaq strategiyasında qarşıya qoyulan hədəflərə çatmağın mümkünlüyünü qeyd edərək, yerlərdə uşaqların sığınacaqlara yerləşdirilməsi zamanı üzləşdikləri çətinliklərdən danışıb.

Konfransda uşaqların müdafiəsinin daha səmərəli təşkili istiqamətində əməkdaşlıqla bağlı müvafiq təkliflər irəli sürülüb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb və mövzu çərçivəsində suallar cavablandırılıb.

*Rəşad Mehtiyev, polis baş serjantı*

**Şuşa Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Bakı şəhərində yerləşən 1 və 9 saylı tam orta məktəblərdə “Narkomaniya bəşəri fəlakətdir!” mövzusunda maarifləndirmə tədbiri keçirilib.**

Polis əməkdaşları, veteranlar, eləcə də digər qonaqlar bu kimi tədbirlərin əhəmiyyətindən söz açaraq məktəblilərə narkotiklərdən uzaq durmağı,



# Narkotikdən uzaq ol, həyatı sağlam yaşa!



vətənpərvərlik ruhunda böyümələri və layiqli vətəndaş olmaları üçün dəyərli tövsiyələr veriblər. Qeyd olunub ki, yeniyetmə və gənclərimiz yüksək təhsil almalı, müasir informasiya texnologiyalarından istifadə etməyi bacarmalı, idmanla məşğul olmalı, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda böyüməli, cəmiyyətimiz üçün sağlam fərdə çevrilmələridirlər.

Yevlax rayon 9 saylı tam orta məktəbdə “Narkomaniya ümumbəşəri bəladır!” və “Erkən nikah və onun fəsadları” mövzularında çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Elnur Mehdiyev narkotik qəbul etmək təklifinə aldanan gənclərin çox vaxt narkomaniyanın təhlükəliliyi haqqında məlumatlı olmamalarını, qısa zamanda bəlanın əsirinə çevrildiklərini və bu üzdən də cinayətə meyilli olduqlarını diqqətə çatdırıb. O, bəlaya düçar olanların müalicədən sonra yenidən sağlam həyata adaptasiya olunmasında cəmiyyətin rolunun vacibliyini vurğulayıb.

Görüşdə erkən nikahın səbəb olduğu problemlərə toxunan E.Mehdiyev hər bir uşağın yaşamaq, təhsil almaq, müdafiə olunmaq hüquqları olduğunu vurğulayıb.

Anoloji tədbir Qax rayonunun 2 nömrəli tam orta məktəbində də keçirilib. Görüşdə RPŞ-nin rəisi və əməkdaşları, polis veteranları, eləcə də məktəbin pedaqoji heyəti iştirak ediblər.

Çıxış edənlər ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan genişmiqyaslı və qətiyyətli mübarizə tədbirlərinin nəticələri barədə məlumat veriblər.

Sonra gənclərə diqqətli olmalarını, gəncliyimiz və gələcəyimiz naminə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olanları gördükdə dərhal polis əməkdaşlarına məlumat vermələrini tövsiyə ediblər.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, şagirdləri maraqlandıran suallar cavablandırılıb.

# BİZƏ YAZIRLAR...



Bir qrup Cəlilabad rayon sakini ünvanladıqları təşəkkür məktubunda yazırlar: “Bu gün evimizdə rahat yatırıqsa, səhər uşaqlarımızı məktəbə yola salıb nigaran qalmırıqsa, hər hansı bir cinayət əməli ilə üzləşmiriksə bütün bunlar polisin sayəsindədir. Biz rayon sakinləri polis əməkdaşlarının xidməti və vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olanlara qarşı mübarizədə fəal iştiraklarına görə minnətdarlığımızı bildiririk”.

❖❖❖

Digər təşəkkür məktubu Sumqayıt şəhər sakini Təranə İmanova tərəfindən ünvanlanıb. Kart hesabından pulunun çəkilməsilə bağlı Sumqayıt ŞPİ-nin 1-ci Polis Bölməsinə etdiyi müraciətdən sonra problemin müsbət həll olunmasına görə minətdarlığını ifadə edir.

❖❖❖

Bakı şəhər sakini Elçin Əsədov DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda etdiyi müraciətə dərhal reaksiya verilməsinə, operativ baxılmasına görə Nizami RPİ-nin 24-cü Polis Bölməsinin şəxsi heyətinə təşəkkürünü bildirir.

❖❖❖

“Evimdə baş vermiş oğurluq hadisəsilə bağlı Bakı Şəhər Baş Polis İdarəsinə müraciət etmişdim. Müraciətimdən sonra dərhal əməliyyat-axtarış işləri başlanıldı və tez bir zamanda oğrular tapılaraq məsuliyyətə cəlb olundular. Müraciətimə operativ baxılaraq məsələnin tez bir zamanda həllini tapmasında göstərilən köməkliyə görə Bakı şəhər BPİ-nin rəhbərliyinə və şəxsi heyətinə təşəkkürümü bildirirəm”. Bu məktubu ünvanımıza sosial şəbəkə izləyicisi Şahin Haqverdiyev yazıb.

❖❖❖

Azərbaycan Yazıçılar Birliyinin üzvü, gənc şair Emil Cəbrayılov yazır: “Baş Dövlət Yol Polisi İdarəsinə getmişdim. Orada məni səmimi qəbul edib dinlədilər. Qısa müddət ərzində üzləşdiyim problem həllini tapdı. Vətəndaşlarla xoş rəftar və səmimi davranışa görə Baş Dövlət Yol Polisi İdarəsinin rəhbərliyinə minnətdarlığımı bildirirəm”.

*R.Əliyeva, R.Vəliyev*

# Təhlükəsizliyi təmin etdilər...



Ötən həftə paytaxtın Qaradağ rayonundakı "Qobu Park" yaşayış massivində doqquzmərtəbəli binanın 8-ci mərtəbəsində baş verən yanğın hadisəsi zamanı çəkilmiş şəkillər və videogörüntülər sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilib. Hadisə yerinə cəlb edilmiş aidiyyəti qurumun əməkdaşlarının, eləcə də polisin fədakarlığı izləyicilər tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Rayon ərazisində xidmət aparan Əlahiddə Çevik Polis Alayının 10-cu Patrul Bölüyünün əməkdaşları bina sakinlərinin təhlükəsiz yerə təxliyə olunmasında Fövqəladə Hallar Nazirliyinin yanğından mühafizə bölmələrinin əməkdaşlarına yaxından köməklik göstərib, yanğının digər mənzillərə keçməsinin qarşısını alıblar.

Sakinlərin təxliyəsi zamanı tüstüdən yüngül dərəcəli zəhərlənən polis əməkdaşları – polis serjantı Elnur İbrahimov və polis kiçik serjantı Məhəmməd Əliyev Kliniki Tibbi Mərkəzdə müayinə olunaraq evə buraxılıblar.



Hadisə baş verən ərazidə ictimai asayişin tənzimlənməsi, eləcə də təxliyyə olunmuş sakinlərin mənzillərinin mühafizəsi polis əməkdaşları tərəfindən təmin olunub.

*Teymur Əlizadə,*
*polis mayoru*

## Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**
**Bağçalar: 1 saylı-(012) 594-14-49, 2 saylı-493-05-68, 3 saylı-440-82-35, 4 saylı-563-55-80**

## Ən güclü olduğunu sübut etdi




DİN İdman Cəmiyyətinin yetirməsi, Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı Bölüyünün əməkdaşı, polis serjantı Hikmət Balayev yarışda qızıl medal qazanıb.

Onun çəkisi 83 kiloqram olsa da, 90 kiloqramda gücünü sınayıb. H.Balayev turnikdə dartınma hərəkətində belinə 72.5, paralel qolda isə 80 kiloqram əlavə çəki bağlamaqla bütün rəqiblərinə qalib gəlib.

**Oktyabrın 16-da Strongmen Federasiyası tərəfindən Bakı Su İdman Sarayında Street-lifting idman növü üzrə Respublika Kuboku uğrunda yarış keçirilib.**

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*




**Suraxanı RPİ-nin 32-ci Polis Bölməsinə** oktyabrın 17-də saat 05:00 radələrində Qaraçuxur qəsəbəsi ərazisində yerləşən yanacaqdoldurma məntəqəsinə gələn maskalı şəxsin orada operator işləyən Bakı şəhər sakini O.Əsədzadəni bıçaqla hədələyib 250 manatını alması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Ə.Əliyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Səbail RPİ 39-cu Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Ramil Quliyev saxlanılıb. Şəxsi axtarış zamanı ondan 105 qramdan artıq heroin aşkar olunaraq götürülüb.

◆◆◆

**Masallı Rayon Polis Şöbəsinə** oktyabrın 14-də şəhər ərazisində bir nəfərin Şıxlar kənd sakini İ.Bayramovu bıçaqla hədələyib mobil telefonu alması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən rayon sakini, əvvəllər məhkum olunmuş İlqar Eynullayev saxlanılıb.




Mobil telefonların insan orqanizminə təsiri artıq neçə illərdir ki, alimlərin ən ciddi araşdırma mövzusuna çevrilib. Tədqiqatçıların bu sahədəki qənaətləri müxtəlif olsa da ümumilikdə bu rabitə növünün insan sağlamlığına təsiri o qədər də ürəkaçan deyil.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bir çox ölkədə aparılmış tədqiqatların nəticəsinə görə mobil telefonlardan çox istifadə edən insanlarda xərçəng xəstəliklərinin yaranma ehtimalı daha böyükdür. Mobil telefonlar insanın gözünün işığa olan həssaslığına da mənfi təsir göstərir və mobil telefonlardan çox istifadə edənlərdə görmə qabiliyyətinə də mənfi təsir göstərir.

Bun gün heç kim öz həyatını mobil telefonsuz təsəvvür edə bilmir. Bu rabitə vasitəsindən istifadə qaçılmazdır. Bunu nəzərə alan alimlər mobil telefonlardan istifadə zamanı daha az mənfi təsirə məruz qalmaq üçün insanları bəzi tövsiyələrə əməl etməyə çağırırlar.

İlk növbədə mobil telefonu işdə və evdə olarkən kənarda saxlamağa çalışmaq lazımdır.

Mobil telefonlardan gün ərzində minimum istifadə edilməlidir.

# Mobil telefonların sağlamlığımıza təsiri...

Müasir mobil telefonlarla danışan zaman bir dəqiqə ərzində insan beyninə 217 elektromaqnit impuls ötürülür ki, bu "zərbə"lərə hamı tab gətirə bilmir. Belə ki, nəticələrə görə mobil telefondan istifadə zamanı beynin şüalanması 8-10 ildən sonra şişlərin əmələ gəlməsinə səbəb ola bilər.

Alimlərin fikrinə görə mobil telefonların insan sağlamlığına mənfi təsiri kompüterdən, planşetlərdən və televizordan daha çoxdur. Çünki bu rabitə vasitəsindən istifadə edən zaman o beyin və gözlərə ən yaxın məsafədə olur və digər fəsadları

Daha yaxşı olar ki, mobil telefonla danışan zaman qulaqlıqlardan və digər xüsusi qurğulardan istifadə olunsun.

Uzanıb istirahət edərkən, işdə fasilə zamanı, nəqliyyatda olarkən, növbələrdə dayanarkən telefonunuzu əyləncə hədəfinə çevirib özünüzü ondan asılı vəziyyətə salmayın.

Və ən başlıcası elə düşünməyin ki, mobil telefon olmasa həyat dayanacaq. İllər öncə mobil telefon mövcud olmayanda da həyat öz axarında davam edib.

*R.Əliyeva*



# XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il tarixlərində 2-ci mövsüm üzrə standart otaqların bir günlük qiymətləri**

**(Daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVİD-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metro stansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |



# STATİSTİKA

## Kriminal icmal

✸ Oktyabrın 12-dən 19-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 391, əvvəlki dövrlərdən bağlı qalan 43 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.

✸ Axtarışda olduğuna görə ümumilikdə 390, o cümlədən borclu şəxs qismində axtarışda olan 256 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

✸ Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 16 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 17 nəfər ölüb, 13 nəfər isə xəsarət alıb.

✸ Narkotiklərlə əlaqəli 194, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 14 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik